SUMQAYIT REGİONAL MƏDƏNİYYƏT
İDARƏSİ
SUMQAYIT ŞƏHƏR GƏNCLƏR KİTABXANASI

# “MİLLİ ŞEIR ƏNƏNƏLƏRİNƏ SÖYKƏNƏN TƏKRARSIZ POEZIYA”

***Nəriman Həsənzadə-90***

(Biblioqrafik göstərici)

***Sumqayıt -2021***

# Ön söz



Xalq şairi Nəriman Həsənzadə haqqında danışmaq ümumən müasir Azərbaycan poeziyası barəsində danışmaq deməkdir. Nəriman Həsənzadə, böyük Səməd Vurğundan sonrakı dövrün ən gözəl şairlərindəndir; şeirində də, nəsrində də, dramaturgiyasında da, hətta publisistikasında da o məhz şairdir. N. Həsənzadə oxucusunu çoxdanın dostu, tanışı və ürək sirdaşı kimi dindirir. Onu sevincinə, arzusuna, kədər və həyacanına şərik etməyi bacarır.

N. Həsənzadə nədən yazırsa yazsın, onun kökü Azərbaycan torpağı ilə bağlıdır. Bəli, Azərbaycan xalqının ağrılı-acılı günləri çox olmuşdur. Dərdlərimiz saysız, tükənməz olmuşdur, mübarizə əzmimiz, eşqimiz isə heç vaxt sönməmişdir. Şair öz döyüşkən qələmi ilə hər vaxt ön səngərdə durmuş, bir çox hallarda zamanı qabaqlamışdır.

Kitabxanamız tərəfindən Nəriman Həsənzadənin 90-cı ildönümü ilə əlaqədar hazırlanan “Milli şeir ənənələrinə söykənən təkrarsız poeziya” adlı biblioqrafik göstərici xalq yazıçısının yubileyinə gözəl hədiyyədir.

Bütün mənalı həytını, çoxcəhətli yaradıcılıq qüvvəsini Azərbaycan ədəbiyyatının inkişafına həsr edən yazıçının mətbuatda yüzlərcə əsərləri, oçerkləri, məqalələri, yaradıcılığı

haqqında monoqrafiyalar, məqalələr dərc edilmişdir.

Biblioqrafiyada onun əsərləri, həyat və yaradıcılığı, haqqında yazılmış məqalələr, həmçinin, həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxslərin onun haqqında söylədiyi fikirlər və onun haqqında yazılmış məqalələr öz əksini tapmışdır. Göstəricidə materiallar bölmələr və yarımbölmələrdə kitablar əlifba sırası ilə,dövrü mətbuat üzrə materiallar isə əks xronoloji qaydada düzülmüşdür.

Göstərici Nəriman Həsənzadənin bədii irsini tədqiq etmək, və öyrənmək istəyən müəllimlər, mühazirəçilər,tələbələr, kitabxana işçiləri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

***Redaktor:***

***Tərtib edəni: Eminova S.H.***





# "Milli şeir ənənələrinə söykənən təkrarsız poeziya" (Nəriman Həsənzadə- 90)

## Tərtibçidən

***Bir şair ömrünü yaşatmaq üçün***
***Bir insan ömrünü girov qoymuşam...***
***N.Həsənzadə***

Əlinə qələm alandan ümidlərini şeh kimi misralara ələyərək onu çiçək, gül ətrində təqdim etməyi bacaran xalq şairi Nəriman Həsənzadə yazlı-payızlı ömrünün 90-cı ilini tamamlamaqdadır. Öz sözləri ilə desək: "İnsan ömrünün təkcə ili yox, anı da tarixi bir hadisəymiş." Elə bu məqamda unudulmaz şair Səməd Vurğunun "Şair, nə tez qocaldın sən?!" misraları adamı üşütsə də, Nəriman Həsənzadənin şux yerişi, şax duruşu həmişə göz önünə gəlir. Bədii sözün ləyaqət bayrağını bütün yaradıcılıq boyu ucalarda saxlayan Nəriman Həsənzadə oxucu ürəyinə yol tapan, həzin, lirik misraları ilə hər kəsin könül çırpıntısına öz qəlbinin döyüntüsünü də qoşaraq insanlarda xoş duyğular, intibahlar oyadan, min köhnəliyin içində min bir təzəlik yaradan görkəmli söz ustasıdır.Nəriman Həsənzadə əslində xoşbəxt qələm sahibidir. Illərdir ki, onun əsərləri sevilə-sevilə oxunur, rəğbətlə qarşılanır, dillər əzbərinə çevrilir, sözlərinə musiqi libası geyindirilir. Mənzum dramları müxtəlif tamaşaya qoyulur. Ömrünü söz sənətinə bağlayan, ilhamının sayəsində bir-birindən maraqlı əsərlərə imza atan Nəriman

Həsənzadə Azərbaycan poeziyasının zənginləşməsində özünəməxsus xidmət göstərir.

Onun yaradıcılığında böyük istedadla tükənməz zəhmət bir vəhdətdədir. O, həmişə bir ziyalı, bir vətəndaş kimi zamanın nəbzini tutmağa çalışmışdır. Nəriman Həsənzadə təkcə şair deyil. O, həm də tanınan, seçilən dramaturq, geniş təfəkkürlü alim, istedadlı publisist, pedaqoq və ictimai xadimdir.

Şairi yaxından tanıyanlar bilirlər ki, o dünya poeziyasına, fəlsəfi fikrinə, estetik baxışlarına dərindən bələd olan bir insandır. Şərqin intibah dövrünü onun kimi yaxşı bilən və dəyərləndirən adamlar çox azdur.

Bu vaxta kimi şairin ölkəmizdə və xaricdə 50-dən yuxarı əsəri nəşr olunmuşdur. Onun əsərləri dünyanın bir çox xalqlarının dilinə tərcümə edilərək geniş yayılmışdır. Təkcə şeirləri yox, böyük əsərləri, o cümlədən "Nabat nənənin çörəyi" povesti bir çox xarici dillərə tərcümə olunaraq dərc edilmişdir.

Azərbaycan Milli Aviasiya Akademiyasının "Humanitar fənlər" kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Nəriman Həsənzadənin müxtəlif illərdə nəfis tərtibatla, kütləvi tirajla çap olunmuş kitabları öz spesifik xüsusiyyətlərinə görə digər kitablardan köklü surətdə fərqlənir. Ən sadəsi ona görə ki, hər bir kitabda müəllifin könül duyğuları dilə gəlib, öz oxucusu ilə könül dilində-səmimi hislər ilə danışır.

Hələ sovet hakimiyyəti dönəmində, xüsusilə də 70-80-ci illərdə bir-birinin ardınca "Bir az möhlət istəyirəm ömürdən" (Bakı, 1981), "Fikir eləmə" ( Bakı, "Gənclik", 1982), "Kimin sualı var?" (Bakı 1984), "Nabat xalanın çörəyi"





(1986), "Seçilmiş əsərləri" (Bakı, 1987), "Mənim nigahımı pozdu təbiət" (Bakı, 1989) kitabları ilə oxucuları qarşısında çıxış edən və hər dəfə yeni əsərləri ilə görüşə gələn Nəriman Həsənzadənin Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etdikdən sonra (1991-ci il oktyabr ayının 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi ilə) "Bütün millətlərə" (Bakı, "Yazıçı", 1991), "Taleyin töhfəsi" (Bakı, "Gənclik", 1993), "Gəlimli-gedimli dünya" (Bakı, "Şərq-Qərb", 1995), "Pompeyin yürüşü" (Bakı,"Azərbaycan ensiklopediyası", 1995) kitabları işıq üzü gördü.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına uyğun olaraq, 2004-cü ildə "Şərq-Qərb" Nəşriyyat Evi tərəfindən "Müasir Azərbaycan ədəbiyyatı" seriyasından "Seçilmiş əsərləri" 336 səhifə həcmində, 25000 tirajla (kütləvi tiraj) çap olunaraq, ölkə kitabxanalarına hədiyyə olundu. Kitabın ön sözünü müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru, professor, Azərbaycanda ATATÜRK Mərkəzinin sədri, respublikanın Əməkdar elm xadimi, "Ədəbiyyat qəzeti"nin redaksiya heyətinin üzvü Nizami Cəfərovdur.

2010-2014-cü illərdə "Prometeyin kitabxanası" seriyasından "Prometey" nəşriyyatı tərəfindən "Seçilmiş əsərləri"nin 7 cildliyi işıq üzü gördü. "Seçilmiş əsərləri"nin I cildinə şeirləri, II cildinə poemaları, III cildinə pyesləri, IV nəsr əsərləri, V cildinə elmi əsərləri, VI cildinə publisist əsərləri, VII cildinə müsahibələr, tərcümələr, aforizmlər, axtarışlar, məktublar daxil edilib. "Seçilmiş əsərləri"nin 7 cildliyinin hər birinin tətribatçısı Xalq şairi Nəriman

Həsənzadənin oğlu filologiya üzrə fəlsəfə doktoru Nazim Həsənzadə, redaktoru isə filologia üzrə fəlsəfə doktoru, dosent Güldanə Əmrullahqızıdır.

2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif olunub.

2015-ci ildə "Kitab Klubu" nəşriyyatı tərəfindən Xalq şairi Nəriman Həsənzadənin "Seçmə şeirləri" 400 səhifə həcmində, 100 tirajla işıq üzü gördü.

2016-cı ildə Azərbaycan poeziyasının inkişafındakı xidmətlərinə görə Cəfər Cabbarlı mükafatına layiq görülüb.

10 may 2017-ci il tarixində Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Azərbaycan xalqının ümummilli lideri, ulu öndər, görkəmli ictimai-siyasi xadim, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 94-cü ildönümündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "N.Ə.Həsənzadəyə Heydər Əliyev Mükafatının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"na uyğun olaraq, Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Xalq şairi Nəriman Həsənzadə "Heydər Əliyev Mükafatına" layiq görüldü.

Xalq yazıçısı Mir Cəlal Paşayev, filologiya elmləri doktoru, professor Nizami Cəfərov, Xalq şairi Bəxtiyar Vahabzadə, Xalq şairi Xəlil Rza ULUTÜRK, Xalq şairi Məmməd Araz, Xalq yazıçısı Mirzə İbrahimov, Əməkdar elm xadimi, professor İsa Həbibəyli lirik şeirlər müəllifi Nəriman Həsənzadənin zəngin yaradıcılıq fəaliyyəti ilə bağlı öz fikirlərini bölüşmüşlər.





POEZİYANIN PIÇILTILI FORMULU- Nəriman Həsənzadə poezyasından danışarkən nədənsə ilk ağlıma gələn onun fikri pıçıltıyla özünüifadəsi olur. Bu poeziya haray-həşirdən, qışqırıqdan uzaq, özünü təsdiq üçün dəridən-qabıqdan çıxanlardan fərqli olaraq abır-həya pərdəsi ilə cilalanan poeziyadır. Bu səmimi və təvazökar poeziya oxucusu ilə ürəyin öz dilində danışır.Ürək də döyünərkən kənardakılar onun səsini duymur, əməli isə göz önündədir. Səmimi insan təmtəraqdan uzaq sadə, təbii konkret faktlara söykənən bir dillə özünü ifade etdiyi kimi səmimi poeziya da belədir. Əsil şair öz yaşanmış hiss və duyğularını tərənnüm edir, yana-yana obrazlaşır, hətta təsvir obyektini də obrazlaşdırmağı bacarır:

***Azərbaycan qoy and içsin Azərbaycan torpağına.***
***Su çilənsin sinəmdəki bir ocağın qor yerinə,***
***Səpin məni vətənimin hər yerinə.***
***Səpin məni kül yerinə,***
***Bu torpaqdan bitəcəyəm mən "Xarı bülbül" yerinə.***

***("Xarı bülbül" poemasından)***

Səməd Vurğun ədəbi məktəbinin ən istedadlı davamçısı olan Nəriman Həsənzadə bu məktəb daxilində özünəməxsus üslub yarada bildi.Bu şairin ən böyük uğuru idi.

Oxucusu ilə həssas bir dildə danışan şairin sözləri də səmimi və təvazökardır:

***Mənim tək işimi qoşa görmüşük,***
***Borcluyam minnətsiz hörməti sənə.***
***Sənin əməyini bölüşdürmüşük,-***
***Şöhrət mənə düşüb,zəhməti sənə...***

Bu misralar allah vergisi olan istedadın zəhmətlə

vəhdətindən yaranan sənət incilərinin ərsəyə gəlməsində sadə peşə adamlarının danılmaz əməyinə verilən ən böyük şair qiyməti,şair dəyəridir.Digər sənətkarlar kimi dünyanı dərkə can atan, olub keçənlərdən nəticə çıxarmağa çalışan şair:

***Sonra gördüm,***
***Dünya özü dedi sirrəm***
***Eh, mən onu dərk etməyə tələsirəm...***
***Qənaətinə gəlir.***

Nəriman Həsənzadə poeziyasında inkarla təsdiq vəhdətdədir:

***Harda ki,dinmədim,susdum,heç nahaq***
***Ağardı saçlarım biruzə verdi.***

Onun poeziyasında söz təkcə şairin dünyanı və özünü ifadəsi üçün deyil,onu dəyişdirməsi üçündür:

***Həyatda imtahan götürənlərin***
***Vaxt gəlir özü də imtahan verir.***

**Yaxud**

***Mən indi bildim ki,nədir bu cəza,***
***Niyə ürəyimiz gizli çat verir.***
***Niyə istedadlı istededsıza,***
***Ya qanan qanmaza hesabat verir.***

Şair bu gizli,maraqlı dünyada sevincli-kədərli günlər yaşadığını,bəzən təşəkkür etdiyi dünyaya hərdən ciddi





etirazını bildirir:”Belə qullar dünyasının şairi xəstə”, ”Zəmanəni tərifləyib şübhələnmişəm,desəm məni başa düşən xalqımmı yoxdur” kimi fikirlər bunu təsdiq edir. ”Səfirə məktub” poemasında da belə fikirlər izlənilir:

***Müstəntiqi seçmək olmur məhkəmədə müttəhimdən,***
***Vətənsizi vətəndaşdan...vətən deyir,hamı vətən.***
***Günahkarıq sən də,mən də,hələ o da,o biri də,***
***Günahkardı ştatların Bakıdakı səfiri də.***

Nəciblik,gözəllik axtarışı Nəriman Həsənzadə poeziyasının ruhuna hopub.Şairə görə”gözəl olmayan qız yoxdu dünyada”.Ruhu gözəl olanlar gözəllik olmayan yerdə belə onu görməyi,arayıb üzə çıxarmağı bacarırlar.Sevgilisi yanında səs-soraq olan şairin yaradıcılığından qadın, ana məhəbbəti qırmızı xətt kimi keçir:

***Ən böyük sirdaşdı qadın ər üçün,***
***Ən böyük arxa da***
***bəlkə qadındı***

**yaxud**

***Kişinin ən böyük mədəniyyəti;-***
***Bəlkə də qadına münasibətdir.***

Şairə görə sevməyi kişidən, əsil sədaqəti isə ancaq qadından öyrənmək gərəkdir. Lakin əlbəttə bu fikri aksioma kimi qəbul etmək absurddur. Şair özü sevimli ömür-gün yoldaşı Sara xanımın həyatdan getməsindən sonra əsil vəfa, sədaqət rəmzinə çevrildi. Sədaqətli xanımına lazım olduğundan da artıq dəyər verməyi bacardı və etibar, ləyaqət

simvolu oldu. Bir şair ömrünü yaşatması üçün bir qadın ömrünün girov qoyulduğunu ürəklə vurğuladı.

Məhəbbətin gerçək özünüifadəsi ilə onun fəlsəfi dərkinin sintezi bu poeziyada ehtiva oluna bilir:

***Halal süd əmmişik ana döşündən,***
***Yaşa, bu müqəddəs duyğular üçün.***
***Bəlkə də qadına borcludur vətən***
***Onun böyütdüyü oğullar üçün.***

Hörmətli akademikimiz N.Cəfərov haqlı olaraq N. Həsənzadəni "Azərbaycan harayı"nı "bütün millətlərə" çatdıran diplomatlar arasında ən böyük şair, şairlər arasında ən böyük diplomat adlandırır."Şairlik özünəməxsus bir diplomatiyadır və bu mənada N.Həsənzadə Azərbaycanın ən səmimi diplomatıdir".

Məncə bu N.Həsənzadə yaradıcılığına verilən ən böyük qiymətdir. Nəriman Həsənzadə poeziyası həmişə müasir və aktualdır.Şair hansı dövrə müraciət etsə də həmin dövrün tarixi-fəlsəfi ovqatını bu günkü günümüzlə sintez etməyi bacarır. Atabəylər", "Nəriman", "Bəyənat", "Pompeyin Qafqaza yürüşü", "Zümrüd quşu", "Bütün Şərq bilsin" kimi əsərlərdə nəinki tarix obrazlaşır bəzən dövrə,zamana ittihamnamə oxuyur:

***Azərbaycan Cavidindi, başqaları sahib çıxır,***
***Moskvanın Bakıdakı iqtidarı sahib çıxır.***
***Soyadı "ov", soyadı "yan" sahib çıxır,***
***Azərbaycan tarixinə böhtan atan sahib çıxır.***

***("Cavid" poemasından(1995)***





Bu poeziya milli dövlətçiliyimizin təbliğat etalonuna çevrilə bilir. Milli təəsübkeşlik hissi ilə ürəyi qan ağlayan şair "Qaçaq Kərəm" poemasında da tarixiliyi müasirliklə diferensasiya etməyi bacarır:

***Bəyanatlar imzaladıq,nitq elədik bəs deyilmi?!***
***Kimi gördük, gözəl-gözəl gün dilədik, bəs deyilmi?!***
***Ocaq söndü,başımıza kül ələdik,bəs deyilmi?!***
***Kül də yoxdu bircə torba yığa kimsə,Qaçaq Kərəm.***

Nəriman Həsənzadə nəğməkar şairdir. Onun həssas, duyğusal, pışıltılı poeziyası musiqi,nəğmə dili ilə daha tez uyğunlaşa bilir. "Sən bağışladın", "Fikir eləmə", "Tələsmə"," Yox deyə-deyə", "Minnətdaram mən", "Gül bir az", "Mənə elə gəlir " kimi mahnılar məhz bu harmoniyadan yaranıb.

Araz qırağında sərhəddə bitən söyüd ağacını təsvir edərkən də şair həssas və duyğusaldır.O, qəlbə sığmayan həyəcanını pıçıltıyla deyir:

***Söyüdüm , əyilib o tayı öpdün,***
***Gətir dodağından öpüm ,söyüdüm.***
***Söyüdüm, saçını o taya səpdin,***
***Saçına gül-çiçək səpim,söyüdüm!***

***Dondu damarımın elə bil qanım,***
***Sanma,qanunlara mən qulaq asdım,***
***Bölmədim bölünmüş Azərbaycanı,***
***Söyüdlə birlikdə bağrıma basdım.***

**(1962)**

Bu poeziya hər misrası ilə, hər detalı ilə pıçıldayır və məkan zaman daxilində sərbəst manevrlər edərək qlobal,bəşəri problemlərə belə toxunmaq hüququ qaz anır. Ona görə də Nəriman Həsənzadə poeziyasının milli və bəşəri poeziya olduğunu qətiyyətlə vurğulaya bilərik.





# HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

**18.02.1931-ci il** Xalq şairi Nəriman Əliməmməd oğlu Həsənzadə Qazax rayonunun Poylu stansiyasında (indiki Ağstafa rayonu ərazisi) anadan olmuşdur.

**1949-53-cü illərdə** İndiki Gəncə Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir.

**1953-cü ildən** Mətbuatda çıxış edir. Əsərləri keçmiş SSRİ və bir çox xarici ölkə xalqlarının (ingilis, fransız, alman, fars, italyan, çex, hind, ərəb, xorvat və s.) dillərinə tərcümə edilmişdir.

**1954-cü ildə** Azərbaycan Yazıçılar İttifaqının (Birliyinin), sonralar isə İdarə Heyətinin üzvü seçilmişdir.

**1954-56-cı illərdə** Ordu sıralarında xidmətdə olmuşdur.

**1961-ci ildə** Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirərək ikinci ali təhsil almış, Moskvada ikiillik Ali Ədəbiyyat Kurslarında da oxumuşdur.

**1962-ci ildə** Respublika Televiziya və Radio Verilişləri Komitəsində böyük redaktor işləmişdir.

**1962-65-ci illərdə** Azərbaycan Dövlət Universiteti-nin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasının aspirantı olmuşdur.

**1965-ci ildə** "Azərbaycan – Ukrayna ədəbi əlaqələri" mövzusunda dissertasiya müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışdır.

**1968-1984-cü illərdə** Nəriman Həsənzadə epik-dramatik poemalar müəllifi kimi də tanınmış: "Nəriman" ("Azərnəşr", 1968), "Zümrüd quşu" ("Gənclik", 1976), "Kimin sualı var?" ("Gənclik, 1984). Hər üç poema rus dilində də nəşr edilmişdir.





**1976-1990-cı illərdə** "Uşaq və Gənclər ədəbiyyatı nəşriyyatı"nda redaktor, "Azərbaycan gəncləri" qəzetində, "Azərbaycan" jurnalında şöbə müdiri, "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru vəzifələrində işləmişdir. SSRİ Yazıçıları Ədəbiyyat Fondu Azərbaycan bölməsinin direktoru olmuşdur.

**1980-1983-cü illərdə** "Bütün Şərq bilsin" pyesi əvvəlcə Sumqayıt Dövlət Dram Teatrında (1980), sonra Akademik Milli Dram Teatrında (1982), Moskvanın V. Mayakovski adına Akademik Dram Teatrında (1983) göstərilmiş və mükafatlandırılmışdır.

**1983-1990-cı illərdə** Bakıda "Seçilmiş əsərləri" ("Azərnəşr", 1987), Tehranda "Söyüd" (1990) və Tiflisdə "Seçilmiş əsərləri" ("Merani", 1983) nəşr edilmişdir. "Nabat xalanın çörəyi" povesti Moskvada "Molodaya qvardiya" nəşriyyatında rus dilində

(1987), Tbilisidə gürcü dilində (1998) nəşr olunmuşdur.

**1984-1997-ci illərdə** “Atabəylər” və “Pompeyin Qafqaza yürüşü” mənzum pyesləri Akademik Milli Dram Teatrında və Naxçıvan MR Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur. “Atabəylər” pyesi Naxçıvan MR-in 80 illiyi münasibətilə (2004) yubiley tamaşası kimi göstərilmişdir.

**1991-1995-ci illərdə** Azərbaycanın Xalq deputatı olmuşdur. Hazırda Milli Aviasiya Akademiyasında “Humanitar fənlər kafedrası”nın müdiri işləyir, dosentdir. MAA Elmi Şurasının üzvüdür.

**1991-2001-ci illərdə** Mətbuat və informasiya nazirinin birinci müavini vəzifəsində çalışmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 221 saylı sərəncamı ilə mətbuat və informasiya nazirini əvəz etmişdir.





**1992-ci ildə** Türkiyənin Böyük Millət Məclisində və Beynəlxalq Budapeşt konqresində xalq deputatı kimi nümayəndə heyəti adından çıxışlar etmişdir.

**2001-ci il 3 dekabrda** N. Ə. Həsənzadə Müstəqil Azərbaycan Respublikasının “Şöhrət” ordeni ilə təltif olunmuş və Fərdi prezident təqaüdünə layiq görülmüşdür.

**2002-2004-cü illərdə** Beynəlxalq Elmlər Akademiyasının (Azərbaycan bölməsi) müxbir üzvü, akademiki seçilmişdir.

**2004-cü ildə** Azərbaycan yazıçılarının XI qurultayında katibliyin qərarı ilə Ədəbiyyat Fondu İdarə Heyətinin sədri təyin edilmişdir.

**2004-cü ildə** “Seçilmiş əsərləri” dövlət tərəfindən latın qrafikası ilə kütləvi tirajla nəşr edilmişdir. 100-dən artıq şeirinə musiqi bəstələnmişdir. Bəstəkar R.

| | |
|---|---|
| | Mustafayevlə “Nəriman” və N. Əliverdibəyovla “Vətən” kantatalarını işləmişdir. |
| **2005-ci ildə** | Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə N. Həsənzadəyə Xalq şairi fəxri a dı verilmişdir. |
| **2009-cu ildə** | Xalq şairi Nəriman Həsənzadənin xarici mətbuat səhifələrində “Vətənsiz” (Rumıniya, 2009) və “Nuru Paşa” (Türkiyənin 9 jurnalında) poemaları dərc edilmişdir. “Kayseri poeziya günləri”ndən şair yüksək təəssüratlar və ödüllərlə qayıtmışdır. |
| **2009-cu ildə** | N. Həsənzadə ilin şairi elan olunmuş, ona “Uğur – 2009” diplomu verilmişdir. |
| **19 aprel 2011-ci ildə** | Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə N.Ə.Həsənzadə “Şərəf” ordeni ilə təltif edilmişdir. |





| | |
|---|---|
| **2016-cı ildə** | Azərbaycan poeziyasının inkişafındakı xidmətlərinə görə Cəfər Cabbarlı mükafatına layiq görülüb. |
| **10 may 2017-ci ildə** | Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Heydər Əliyev Mükafatı verilmişdir. |
| **17 fevral 2021-ci il** | Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə N.Ə.Həsənzadə “İstiqlal” ordeni ilə təltif edilmişdir. |

# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR NƏRİMAN HƏSƏNZADƏ HAQQINDA:

N.Həsənzadənin şerirlərindən mən həmişə həzz almışam. Onun şeirlərində həmişə ürək döyünür. Çünki oxucusu ilə o ürək dilində danışır. Ürək dili nədir? Səmimiyyət! Onun şeirləri həmişə məni isidib,həmişə düşündürüb, görə bilmədiklərimi mənə göstərib.

* * *

Nəriman Həsənzadə dünyada gözəllik, nəciblik, zəriflik axtarır və bunları bəzən olmayan yerdə də görür. Çünki gözəllik və zəriflik bu şairin sənət idealıdır. O, yalnız bu ideya eşqinə yazıb-yaradır. Bax budur onun nəğmələrinin baş motivi.

***Bəxtiyar Vahabzadə. xalq şairi***

O təkcə şeirində, nəsirində, dramaturgiyasında, publisistikasında deyil, adı məişətdə də böyük şairdir.

***Nizami Cəfərov. professor, Əməkdar elm xadimi***





N.Həsənzadə təpədən dırnağa söz adamıdır; nəsrində də, dramaturgiyasında da adi çıxış və məqalələrində də şairdi;sözün səsinə qulaq verən, bu səsi səriştəli şəkildə müəyyən insanlara yola salan və əks-səda kimi qarşılanan, sözdən əsgəri borcunu necə yerinə yetirdiyi barədə hesabat istəyəndir...

***Məmməd Araz. xalq şairi***

“...Nəriman olduqca həssas bir şairdir. O, bir qartalın uçuşunda, bir lalənin duruşunda, bir körpənin baxışında bütün kainatı, ictimai aləmi və məna dolu həyatımızı görmək istəyir.”

***Mir Cəlal Paşayev***

“Bütün müraciətlərə müsbət cavab vermək, çox müşkül məsələdir. Mütləq kimsə narazı qalacaq. Ancaq üç-dörd adam tanıyıram ki, bu məsələdə istisnadır. Onlardan biri də Nəriman Həsənzadədir. Elə bir adam tapmazsan ki, Nəriman müəllim onu naümid geri qaytarsın.”

***Çingiz Abdullayev, xalq yazıçısı***

“Nəriman Həsənzadə haqqında danışmaq ümumən müasir azərbaycan poeziyası haqqında danışmaq deməkdir. Şairlik Nəriman Həsənzadənin stixiyasıdır- o, təkcə şeirində, nəsrində, dramaturgiyasında, publisistikasında deyil, adi məişətdə də şairdir, yazanda da, yazmayanda da şairdir...”

* * *

"N. Həsənzadə Azərbaycan harayı"nı "bütün millətlərə" çatdıran diplomatlar arasında ən böyük şair, şairlər arasında ən böyük diplomatdır. "Şairlik özünəməxsus bir diplomatiyadır və bu mənada N.Həsənzadə Azərbaycanın ən səmimi diplomatıdır".

***Nizami Cəfərov,***
***Əməkdar elm xadimi, professor***

Müasir Azərbaycan ədəbiyyatında saf, xalis lirikanın yaradıcıları sırasında nəriman həsənzadənin xüsusi yeri vardır. Şeirləri təpədən dırnağa qədər lirizm hadisəsidir. Hətta Nəriman Həsənzadənin danışıq tərzində də lirik bir həzinlik qabarıq müşahidə olunur.

***İsa Həbibbəyli,***
***Əməkdar elm xadimi, professor***

Əziz dostumun lirik dünyası, təfəkkür asimanı ümmandır və heç vaxt tükənən deyil.

... Sadəcə şair dostuma deyirəm: Nəriman müəllim, 80-90 nədir ki... sənin bəşəri poeziyan min illər boyu Azərbaycan poeziya kəhkəşanında ən parlaq ulduzlardan biri olacaq.

***Musa Quluzadə, Nasir, dramaturq***

Uzun müddətli müalicədən sonra Bakıya qayıdan günü məni aeroportdan evə aparan avtomobilin radiosu ilə şair





Nəriman Həsənzadənin sözlərinə yazılmış "Mənim dünyam" mahnısı səslənirdi. Mahnı məni bərk kövrəltdi. heç vaxt belə olmamışdım. Sanki dünyaya ikinci dəfə gəlmişdim.... Nəriman istedadlı şairdir. onun yaradıcılığı tərifə layiqdir.

***Məmməd Araz, Xalq şairi***

Mövzu müxtəlifliyi, insan arzularının, cəmiyyət həyatının və zəmanənin çoxcəhətli, zəngin boyalarla işlənməsi hər bir poetik əsərin məziyyətidir. Nəriman Həsənzadənin poeziyası bu cəhətdən də oxucuda dərin maraq oyadan poeziyadır. İdeala, gözəlliyə, mənəvi saflığa sadiq olan insanlıq və vətəndaşlıq hisslərini şeirlərinin canına, ruhuna hopduran bu şair daima axtarışdadır, onun poetik fikri yorulmaq bilmir, oxucuya arasıkəsilmədən yeni əsərlər təqdim edir.

***Mirzə İbrahimov, xalq yazıçısı***

«Nərimanın şeirlərini oxuduqca biz belə qənaətə gəlirik ki, sənət əsəri, xüsusən lirik şeir o zaman adamı əfsunlayır ki, həyat, təbiət və insanlar haqqında, onların bitməz-tükənməz işığı, qaranlığı, gözəlliyi, eybəcərliyi, sevinc və faciələri barədə oxucuya nə isə yeni bir şey deyir, onu bu vaxta qədər bilmədiyi, duymadığı, xəyalına da gətirmədiyi qəribə hisslərlə, duyğularla tanış edir, dərin fəlsəfi mənalar və füsunkar gözəlliklər aləminə aparır, fikrini, düşüncəsini bu aləmin sirlərini dərk etməyə yönəldir».

***Mirzə İbrahimov, xalq yazıçısı***

Nəriman Həsənzadə fikir və məna şairidir... Həyatda son dərəcə zərif, incə, həssas və bəzən həddindən artıq həlim, yumşaq tanıdığımız Nəriman Həsənzadə bədii yaradıcılıq aləmində kompromis tanımır. o, son dərəcə mərd və prinsipialdı...

*Xəlil Rza Ulutürk, Xalq şairi*





# N. HƏSƏNZADƏNİN ƏSƏRLƏRİ
## Azərbaycan dilində (Latın)

**1. Ayrılığın qəm hasarı:** Şerlər /Rafiq Yusifoğlu; Red.: Nəriman Həsənzadə -Bakı: Təhsil, 2002.-320 səh.

**2. Azərbaycan dili və nitq mədəniyyəti:** dərslik /N. Həsənzadə, G. Pənahova, Ə. Abbasov (tərt.) ; elmi red. N. Q. Cəfərov ; Azərb. Dövlət Neft və Sənaye Un-ti. Bakı: [Ecoprint], 2016.-262 s.

**3. Həsənzadə Nəriman. Nuru Paşa:** poema /N. Həsənzadə; Ön söz: N.Cəfərov; Red. M. Ələkbərli.-Bakı, Oğuz eli, 2010.-104 s.

**4. İllər... pillələr... talelər...:** /N.Həsənzadə; Red. Nazim Həsənzadə.- B.: Oğuz eli, 2011.-200 s.

**5. Kulturologiya: Dünya mədəniyyəti tarixi:** Dərslik /N.Həsənzadə; Elmi red.: F.Məmmədov; Red.: G.Pənahova; Rəyçilər: N.Cəfərov, C.Mustafayev.- B.: Polygraphic Production, 2005.- 278 s.

**6. Mənim ədəbi taleyim:** zamanla, tarixlə görüş /N. Həsənzadə ; red. N. Cəfərov.-Bakı: 2013.-106 s. Nizami: Müasirim haqqında poema /N. Ə. Həsənzadə //Tehran: Alp, 2010.-85 s.: Mətn ərəb qrafikasındadır.

**7. Nuru Paşa:** poema /N. Həsənzadə ; ön sözün müəl. N. Cəfərov ; red. G. Əmrullahqızı ; [türk dilinə çev. İsmet Bora Binatlı]-Bakı: [Oğuz eli], 2010.-103 s.

**8. Poylu-beşiyim mənim:** (Poylu eposu) /N.Həsənzadə; Red. G.Əmrullahqızı B.: 2007. 144 s.

**9. Seçilmiş əsərləri:** Şeirlər /N.Həsənzadə /Ön söz: B.Xəlilov. 7 cilddə. 1 cild /N.Həsənzadə.- B.: 2010.- 812 s.

**10. Seçilmiş əsərləri. Poemalar:** 7 cilddə. 2 cild /N.Həsənzadə.- B.: 2010.-742 s.

**11. Seçilmiş əsərləri.** Pyeslər 7 cilddə. 3-cü Cild /N. Ə. Həsənzadə ; tərt. N. Həsənzadə ; ön söz müəl. İ. Həbibbəyli ; red. G. Əmrullahqızı. Bakı: Prometey, 2011.-354 s.

**12. Seçilmiş əsərləri. Nəsr:** /Ön söz: B.Xəlilov. 7 cilddə.4 cild /N.Həsənzadə.- B.: 2010.- 266 s.

**13. Seçilmiş əsərləri. Elmi, ədəbi-tənqidi əsərlər:** 7 cilddə. 5-ci Cild /N. Həsənzadə ; tərt. Ed. N. Həsənzadə ; red. G. Əmrullahqızı. Bakı: Prometey, 2011.-606 s.

**14. Seçilmiş əsərləri:** /N. Həsənzadə ; ön sözün müəl. N. Cəfərov ; [buraxıl. məsul Ə. Güləliyev ; tərtibatçı-rəssam N. Əliyeva].-Bakı: Şərq-Qərb, 2004.-336 s.





**15. Tariximiz, taleyimiz:** elmi, ədəbi-tənqidi və publisistik məqalələr, müsahibələr /N. Həsənzadə ; tərt. N. Həsənzadə ; red. A. Bağırov-Bakı: [Elm və həyat], 2002.-607 s.

## N. HƏSƏNZADƏNİN ƏSƏRLƏRİ
## Azərbaycan dilində (Kiril)

**16. Seçilmiş əsərləri :** şeirlər, poemalar /N. Ə. Həsənzadə - Bakı: Azərnəşr, 1987. - 376 s.

**17. Bir az möhlət istəyirəm ömürdən:** şeirlər, poemalar, nəğmələr /N. Ə. Həsənzadə. Bakı: Y\azıçı, 1981.-452 s.

**18. Bütün millətlərə :** şeirlər, poemalar, publisist qeydlər /N. Ə. Həsənzadə - Bakı : Yazıçı, 1991. - 360 s.

**19. Dostlar gözləyir məni:** /N. Ə. Həsənzadə -Bakı: Uşaqgəncnəşr, 1956.-56 s.

**20. Fikir eləmə: /N. Ə. Həsənzadə - Bakı:** Gənclik, 1982.-135 s.

**21. Gəlimli-gedimli dünya:** /N. Həsənzadə; Red. G. Əmrullahqızı; Rəssam. N. Rəhimov; Ön söz. N.Cəfərov-Bakı: Şərq-Qərb, 1995.-316 s.

**22. Haradasan:** /N. Ə. Həsənzadə -Bakı: Uşaqgəncnəşr, 1959.-77 s.

**23. Heç nə istəməyən qız:** [Şeirlər] /Nəriman Həsənzadə; Rəssamı. E. Lazımov-Bakı: Gənclik, 1993.-50 s.

**24. İllər, səndə nəyim qaldı:** /N.Həsənzadə; Red. M.Axundov-Bakı: Yazıçı, 1991.-304 s.

**25. Kimin sualı var?** [poema] /N. Həsənzadə.-Bakı: Gənclik, 1984.124 s.:

**26. Könlüm şeir istəyir:** [şeirlər və poema] /N. Ə. Həsənzadə ; red. M. İbrahim.-Bakı: Azərnəşr, 1964.-83 s.

**27. Qaraca Çobanın hekayəti:** /N. Ə. Həsənzadə - Bakı: 1960.-121 s.

**28. Qız ürəyi:** /N. Ə. Həsənzadə ; [red. Ə. Abasov].-Bakı: Uşaqgəncnəşr, 1957.-56 s.

**29. Qoca çobanın hekayəti:** /N. Ə. Həsənzadə - Bakı : Uşaqgəncnəşr, 1960. - 30 s.

**30. Mənə elə gəlir:** [Notlar] /Ş. Axundova; söz. N. Həsənzadə-Bakı: 1987.-3 s.





**31. Mənim gecəm gündüzüm:** [şeirlər və poema] /N. Ə.Həsənzadə ; [red. Ə. Cəmil]- Bakı: Gənclik, 1973.-234 s.

**32. Mənim nigahımı pozdu təbiət:** Şeirlər və dramatik poemalar /Nəriman Həsənzadə Bakı: Yazıçı, 1989.-328 s.

**33. Nabat xalanın çörəyi:** [povest] /N. Ə. Həsənzadə ; [red. T. Muxtarova]-Bakı: Gənclik, 1986.-180 s.

**34. Nabat xalanın çörəyi:** / N. Ə. Həsənzadə - Bakı: Gənclik, 1974.-148 s.

**35. Nəriman:** epik-dramatik poema / N. Həsənzadə ; [red. M. Şükür] -Bakı: Yazıçı, 1978.-194 s.

**36. Nəriman :** epik-dramatik poema / N. Ə. Həsənzadə ; red. E. Borçalı-Bakı: Azərnəşr, 1968.-148 s.

**37. Niyə demədiniz : şeirlər.** / N. Ə. Həsənzadə ; - Bakı : Gənclik, 1970. - 131 s.

**38. Pompeyin Qafqaza yürüşü:** Dramatik xronika / Nəriman Həsənzadə; Red. İ. Öməroğlu (Vəliyev) Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1995.-64 s.

**39. Sən bağışladın :** şeirlər və poemalar. / N. Ə. Həsənzadə - Bakı : Gənclik, 1979. - 152 s.

**40. Sizdən ayrılmadım:** /N. Ə. Həsənzadə - Bakı: Uşaqgəncnəşr, 1961.-121 s.

**41. Söyüd ağacı:** şeirlər məcmuəsi /N. Həsənzadə ; çapa hazır. və ön sözün müəl. A. Ağkəmərli ; red. A. Fəsihi.- Tehran: 1990.-87 s.

**42. Taleyin töhfəsi:** şeirlər. /N. Ə. Həsənzadə - Bakı : Gənclik, 1993. - 264 s.

**43. Unudulmaz günlər:** /N. Ə. Həsənzadə ; [red. Ə. Əlibəyli]-Bakı: Azərnəşr, 1965.-78 s.

**44. Yadına düşəcəyəm:** /N. Ə. Həsənzadə ; red. E. Borcalı.-Bakı: Azərnəşr, 1966. 171 s.

**45. Zümrüd quşu:** /N. Ə. Həsənzadə - Bakı: Gənclik, 1973.-200 s.

**46. Zümrüd quşu :** epik-dramatik poema /N. Ə. Həsənzadə - Bakı : Gənclik, 1976. - 142 s.

## KİTABLARDA (Latın)

**47. Ankarada Məmməd Əmin Rəsulzadənin məzarı:** şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq- Qərb, 2004. - S.34-35.





**48. Atabəylər:** // Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. - Bakı : Şərq-qərb, 2007.- C.3. - S.58-163.

**49. Azərbaycan :** himn // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.145-146.

**50. Beynəlxalq məhkəməyə, bütün millətlərə:** şeir // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.45-46.

**51. Burjua şairi :** Cavidə həsr olunur: // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.58- 59.

**52. Cavidin :** şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.153-154. Cəbhə bayatıları // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.37-39.

**53. Dünyada tərifli bir gün görmədim:** Bəkir Nəbiyevə // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb,2004.- S.88-89.

**54. Əbədiyyət:** Zərifə Əliyevanın xatirəsinə // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.146-148.

**55. Gəncə üsyanı:** şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.26-27.

**56. Xəlilin göz yaşı:** Xəılil Rza Ulutürkə // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.64-65.

**57. İstiqlal laylası:** Əli Tudəyə // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.76-78.

**58. Kitabxanaçı:** şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.78-79.

**59. Qanlı kitab:** şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.41-42.

**60. Məhəbbət:** Bəhram Mansurova ithaf olunur // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, - 2004. -S.100-101.

**61. Mir Cəlal heyy...:** şeir // Seçilmiş əsərləri. . - Bakı : Şərq-Qərb, - 2004. - S.89.

**62. Mənim tarixim:** şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.122-123.

**63. «Nazim Hikmət» silsiləsindən:** // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.137-140.- Silsiləyə «Sabah gələsiydi», «Mən bilsəydim» şeirləri daxil edilmişdir.

**64. Nemətzadə, S. Salam Bakı:** [Mətn] [şeirlər] /S. Nemətzadə ; red. F. Məmmədxanlı ; [ön söz N. Həsənzadə].-Bakı: Elm və təhsil, 2017.-253 s.

**65. Payız:** şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.107.





**66. Şəhidlər xiyabanı:** şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.40-41.

## N. HƏSƏNZADƏNİN ÖN SÖZ YAZDIĞI KİTABLAR VƏ ƏSƏRLƏR

**67. Cəfərov, N. Cənubi Azərbaycanda ədəbi dil:** normalar, üslublar... /N. Cəfərov ; red. Z. İ. Budaqova ; ön söz. N. Həsənzadə ; -Bakı: Elm, 1990.-126 s.

**68. Əliyeva, S. Təbiətlə, paklıqla üz-üzə:** /S. Əliyeva ; ön sözün müəl. N. Həsənzadə ; red. S. İsmayılova.-Bakı: Elm və təhsil, 2016.-265 s.

**69. Əliyev, B. Göz aydınlığı:şeirlər :** /B. Əliyev ; ön söz. N. Həsənzadə ; [red. Z. Yaqub]-Bakı: Yazıçı, 1986.-70 s.

**70. Güllərin soyqırımı:** [2 hissədən ibarət poema ] /M. Məftn ; red. V. Nəsib, S. Hüseynoğlu ; [ön söz N. Həsənzadə -Bakı: Mütərcim, 2018.-125 s.

**71. Güləmail, Murad. Hayku və Vakalar:** /Güləmail Murad ; layihə rəhbəri X. Rza ; red. F. Qoca ; ön söz müəl. N. Həsənzadə.-Bakı: Mütərcim, 2019.-125 s.

**72. Hacı A.-T. Abbasqızı. Dünya, məni tanıdınmı?** (poemalar, şeirlər, miniatürlər, uşaq tapmacaları və ithaflar) /Hacı A.-T. Abbasqızı ; red. S. Əhmədli ; [ön söz əvəzi N. Həsənzadə]-Bakı: [MBM], 2010.-223 s.

**73. Hicran, F. Röyanın sirləri müdriklərimizin idrak xəzinəsində:** /F. Hicran ; red. Q. Paşayev ; ön söz müəl. N. Həsənzadə : AMEA, Nizami ad. Ədəbiyyat in-tu-Bakı: «Aspoliqraf»-2014.-180 s.

**74. Hicran, F. Yuxular-yozmalar və röyanın sirləri müdriklərimizin idrak xəzinəsində:** /F. Hicran ; red. Q. Paşayev ; ön söz müəllifi N. Həsənzadə ; -Bakı: Elm və təhsil, 2011.-190 s.

**75. Hicran, F.Yunus Əmrə və folklor:** [monoqrafiya] /F. Hicran ; red. İ. Ə. Həbibbəyli ; [ön söz N. Ə. Həsənzadə] ;-Bakı: Elm və təhsil, 2018.-243 s.

**76. İsgəndərzadə, E. Əsərləri:** 5 cilddə /E. İsgəndərzadə ; ön söz. müəl. N. Həsənzadə ; red. N. Cəfərov C. 2. Poemalar-Bakı: Vektor Beynəlxalq Nəşrlər Evi, 2017.-393 s.

**77. Cəfərov, N.Q. Keçən günlərin dastanı:** /N. Q. Cəfərov; red. S. Şəmil ; ön söz. müəl. N. Həsənzadə ; - Bakı: Xan, 2016.-210 s.





**78. Quluzadə, M. Bu da bir ömürdür:** (povest, hekayə, mənsur şeir və fəlsəfi düşüncələr) /M. Quluzadə ; ön söz müəl. N. Həsənzadə ; [red. X. Savalanlı].-Bakı: [Nurlan], 2009.-399 s.

**79. Bakıxanov, T. Qüdsi: [Notlar]:** fortepiano ilə oxumaq üçün /T. Bakıxanov; ön söz. N. Həsən-zadə; -Bakı: 1994.-44 s.

**80. Lermontov M. Y. Seçilmiş əsərləri:** /M. Y. Lermontov; tərt., tərc. E. Borçalı; on söz müəl. N. Həsənzadə ; red. M. Əvəzqızı ; -Bakı: Aspoliqraf, 2014.-272 s.

**81. Məmmədli, İ. İmirə dediklərim...:** şeirlər /İ. Məmmədli; [ön söz. N. Həsənzadə]-Bakı: Oğuz eli, 2006.-287 s.

**82. Mir, Cəlal. Seçilmiş əsərləri:** /Mir Cəlal; Red. hey. Əsgər Quliyev (baş red.)və b.; Tərtib edəni. Ə.Paşayeva; Ön sözün müəllifi və red. N.Həsənzadə-Bakı: Çaşıoğlu, 2005.-480 s.

**83. Orucoğlu, M. Ömürdü bu...:** /B. Orucoğlu; Red.: S. Sərxanlı; Ön sözün müəllifi: N. Həsənzadə; Bakı: Araz, 2002-100 səh.

**84. Ağkəmərli, A. Öpdüm Arazı...:** [seçmə şeirlər] /A. Ağkəmərli ; red. və dizayn Mişov araşdırma qrupu ; [ön söz. N. Həsənzadə]-Bakı: Mişov Kültür Dərnəyi, -2016.-373 s.

**85. Rüstəm, K. Sözü işığa danışdım:** [məqalələr, esselər, resenziyalar, etüdlər] /R. Kamal; ön söz müəl. N. Həsənzadə ; red. A. Əmrahoğlu-Bakı: MBM, 2012.-247 s.

**86. Pənah, G. Yurd yanğısı:** Şerlər /G. Pənah; Red.: G. Əmrullah qızı; Ön söz: N. Həsənzadə- Bakı: Şur, 1998-160 s.

## TƏRTİB ETDİYİ VƏ REDAKTORU OLDUĞU KİTABLAR

### LATIN

**87. Aslan, V. Əkiz ruhlar:** [şeirlər və poema] /V. Aslan ; naşir M. Ələkbərli ; red. N. Həsənzadə Bakı: [Şur], 2013.-175 s.

**88. Aydınqızı, A. Dialoq fəlsəfəsi:** elmi-publisistik əsər /A. Aydınqızı ; elmi red. N. Həsənzadə Bakı: Garisma MMC, 2009.-137 s.

**89. Cəfərov, N., Mərdanova, S., Qəribli, A. Azərbaycan nitq mədəniyyəti:** /N. Cəfərov, S. Mərdanova, A. Qəribli ; elmi red. N. Həsənzadə ; [ön söz Ə. Qarayev ; buraxılışa məsul S. İsmayılova] ; -Bakı: Şərq-Qərb,- 2018.-301 s.





**90. Cəfərov, N. Ədəbiyyatın müstəqilliyindən müstəqilliyin ədəbiyyatına:** /N. Cəfərov ; elmi red. N. Həsənzadə ; red. D. Osmanlı ;-Bakı: Elm və təhsil, 2016.-347 s.

**91. Cəfərov, N. Gülağa Tənhanın poeziyası:** /N. Q. Cəfərov ;elmi red. N. Həsənzadə.-Bakı: Çaşıoğlu, 2015.-91 s.

**92. Cəfərov, N. Klassiklərdən müasirlərə:** /N. Cəfərov ; elmi red. N. Həsənzadə-Bakı: Çaşıoğlu, 2004.-272 s.

**93. Cəfərov, N. Muğan yarpaqları:** [şeirlər : qəzəl] /S. Seyid Sadıq ; red. N. Ə. Həsənzadə Seyid Sadıq, Seyidağa. 1949-Bakı: Elm və təhsil, 2018.-150 s.

**94. Cəfərov, N. Uzaq üfüqlərə aparan cığır:** [Şerlər] /A. Arabaçı; Red.: N. Həsənzadə-Bakı: Nağıl evi, 2003.-156 səh.

**95. Cəlili, Ş. Məbəd Mələyi:** /Ş. Cəlilli; red. B. Vahabzadə, N. Həsənzadə-İstanbul: -2010.-269 s.

**96. Dəniz, F. Çırpındı iki dəniz:** [şeirlər] /F. Dəniz ; red. N. Həsənzadə ; məsləhətçi C. Zeynaloğlu ; dizayner S. Mustafaoğlu.-Bakı: Günəş-MMC, 2020.-152 s.

**97. Əsədov, A. İ. Ver, ver bizə zəfəri:** /A. İ. Əsədov ; [red. N. Həsənzadə, Q. Ağsəs].-Bakı: Aspoliqraf, 2016.-25 s.

**98. Heydər, R. Tanrıya gedən yol:** poema /R.Heydər; [red. və ön sözün müəl. N.Həsənzadə] -Bakı: Vektor, 2008.-144 s.

**99. Həsənqızı, E. Yüksələn dövlətimiz:** /E. Həsənqızı ; elmi red. N. Həsənzadə-Bakı: Adiloğlu, 2010.-419 s.

**100. Hüseynoğlu, S. Bir topa buludam yağmamış:** /S. Hüseynoğlu ; red. N. Həsənzadə-Bakı: Sabah, 2011.-458 s.

**101. Hüseynoğlu, S. Fikrin gül ayələri:** (Gülayənin yaradıcılığı kontekstində) /S. Hüseynoğlu ; red. N. Həsənzadə-Bakı: Vektor Beynəlxalq Nəşrlər Evi, 2016.-131 s.

**102. Xələfli, Ə.R. Dilimiz-varlığımız:** [ədəbi-publisistik düşüncələr] /Ə. R. Xələfli; elmi red. N. Həsənzadə; red. E. Kamal-Bakı: [MBM], 2009.-159 s.

**103. Xəlilzadə, D. İkimizin yuxusuymuş bu dünya:** /D. Xəlilzadə; red. N. Həsənzadə; naşir. Q. İsabəyli-Bakı: Şirvannəşr, 2009.-107 s.





**104. İlkin, N. İllərin o tayı gözləyir məni:** [şeirlər] /N. İlkin ; red. N. Həsənadə.-Bakı: Araz, 2011.-237 s.

**105. İsaxanlı, İ. Şeir gülüstanının təkrarolunmaz çiçəyi, Serqey Yesenin:** /İ. İsaxanlı; red. N. Həsənzadə-Bakı: Xəzər Universitəsi, 2010.-372 s.

**106. Quluzadə, M. Xatirələrdən boylanan ömür:** povest, hekayə, mənsur şeir, fəlsəfi düşüncələr və pyeslər /M. Quluzadə ; ön söz. müəl. N. Həsənzadə ; red. X. Savalanlı-Bakı: Mütərcim, 2013.-400 s.

**107. Qurbanlı, R. Hər ömürdən bircə gün:** /R. Qurbanlı ; red. N. Həsənzadə ; [ön söz müəl. N. Cəfərov]-Bakı: Elm və təhsil, 2016.-406 s.

**108. Mahmud, H.Qıyma gözəlliyə:** /Hikmət Mahmud; Red. N.Həsənzadə-Bakı: UniPrint, 2008.-232 s.

**109. Mahmud, H. Seçilmiş əsərləri:** [iki cilddə] /H. Mahmud ; red. N. Həsənzadə ; [ön söz əvəzi Əli Rza Xələfli]-Bakı: Günəş-MMC, 2017.-409 s.

**110. Mahmud, H. Seçilmiş əsərləri:** iki cilddə /H. Mahmud ; red. N. Həsənzadə-Bakı: Günəş-MMC, 2017.-355 s.

**111. Məsimoğlu, M. Professor Nizami Cəfərov:** /M. Məsimoğlu ; elmi red. N. Həsənzadə.-Bakı: Elm və Təhsil, 2009.-151 s.

**112. Cəfərov, N. Mir Cəlalın milli idealları:** /N. Cəfərov ; elmi məsl. N. Həsənzadə ; elmi red. K. Tahirov ; -Bakı: -2018.-111 s.

**113. Muxtar, R. Seçilmiş əsərləri:** /R. Muxtar ; red. N. Həsənzadə Cild 2.-Bakı: 2017.-228 s.

**114. Murad, X. Analı günlərin davamı...:** /X. Murad ; red. N. Həsənzadə ; [tərt. Ə. Əliyev] -Bakı: 2014.-110 s.

**115. Nəriman Həsənzadə haqqında yazılanlar:** /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi ; tərt. N. Həsənzadə ; red. G. Əmrullahqızı; Cild 1-ci Kitab.-Bakı: [Nağıl Evi], 2012.-570 s.

**116. Nəğməkar, Y. Nizami demiş...:** [poema] /Y. Nəğməkar ; red. N. Həsənzadə ; [ön söz müəl. V. Yusifli]-Bakı: Gənclik, 2017.-167 s.

**117. Nəğməkar, Y. Sevgi məbədi:** [şeirlər, poema] /Y. Nəğməkar ; [red. N. Həsənzadə].-Bakı: [-Gənclik, -2020.-271s.





**118. Nuranə, Nur. Yoxluğuna və sağlığına:** şeirlər / Nuranə Nur ; red. və. ön söz N. Həsən-zadə Bakı: Mütərcim, 2013.-77 s.

**119. Seyidağa, Seyid Sadiq, Son dayanacaq:** sənədli hekayələr və miniatürlər /G. Munis ; red. və ön söz N. Həsənzadə ; -Bakı: [MBM],- 2013.-155 s.

**120. Sibirel, E. N. Yaşamaq da igidlikdir:** /E. N. Sibirel ; red. N. Həsənzadə.-Bakı:-2014.-183 s.

**121. Sizə vacib sözüm var:** (nəsihətamiz həqiqətlər və deyimlər) /Seyidağa Seyid Sadiq ; red. N. Həsənzadə ;-Bakı: Print-S, 2018.-224 s.

**122. Şəfəq, T. Sənsiz yaşanan illər:** /T. Şəfəq; Red.: N. Həsənzadə-Bakı: Adiloğlu, 2005.-218 s.

**123. Şərəfli ömür yolu:** /toplayıb tərt. edəni S. Əhmədli, H. Rüstəmzadə ; red. N. Həsənzadə-Bakı: Kitab evi, 2011.-457 s.

**124. Cəfərov, N. Tarixin tərcümeyi-halı:** /N. Q. Cəfərov ; elmi red. N. Məmmədli ; red. D. Osmanlı ; elmi məsl. N. Həsənzadə.-Bakı: Elm və təhsil-2014.-263 s.

**125. Yaquboğlu, V. Oğul oğul olsa...:** [şeirlər] /V. Yaquboğlu ; red., [ön söz] N. Həsənzadə.-Bakı: Azərnəşr, 2014.-388 s.

**126. Yusifoğlu R. Ayrılığın qəm hasarı:** Şerlər /Rafiq Yusifoğlu; Red.: Nəriman Həsənzadə -Bakı: Təhsil, 2002.-320 səh.

**127. Zəngilanlı, Ş. Liderlik xəstəliyi:** /Ş.Zəngilanlı; Red.: N.Həsənzadə; Naşir: Ş.Səlimbəyli; Rəssam: -Bakı: Yazıçı, 2002-104 səh.

